AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN KOLLEGİYASI QƏRARI |
| Qəbul edildiyi tarix | 02.12.2019 |
| Qeydiyyat nömrəsi | 010 |
| Adı | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyalarının, yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud yenidən qurulmasına rəyin verilməsi Qaydası"nda və 2016-cı il 16 may tarixli 18/Q nömrəli Qərarı ilə təsdiq edilmiş "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 17.12.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.070.010 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201912050010 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 16.12.2019 |

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1375-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 443 nömrəli Fərmanının 2-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyalarının, yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud yenidən qurulmasına rəyin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** adında "təminatlı" sözü çıxarılsın, "stansiyalarının" sözündən sonra "(sahələrinin)" sözü və "yaxud" sözündən sonra "təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə" sözləri əlavə edilsin;

**1.2.** 1.1-ci bənddən "təminatlı" sözü çıxarılsın, həmin bəndə "stansiyalarının" sözündən sonra "(sahələrinin)" sözü və "yaxud" sözündən sonra "təyinatı avtomobil nəqliyyatının digər infrastruktur

obyektinə dəyişdirilməklə” sözləri əlavə edilsin;

**1.3.** 1.2-ci məndə “yaxud” sözündən sonra “təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə” sözləri əlavə edilsin;

**1.4.** 1.3-cü bəndə “yaxud” sözündən sonra “təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə” sözləri əlavə edilsin, həmin bənddə “Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik)” sözləri “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti (bundan sonra - Xidmət)” sözləri ilə əvəz edilsin və “tərəfindən” sözündən əvvəl “, Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə Bakı Nəqliyyat Agentliyi (bundan sonra - BNA)” sözləri əlavə edilsin;

**1.5.** 1.4-cü bənddə “müvafiq avtomobil nəqliyyatı infrastruktur obyektinə çevrildikdə” sözləri “avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirildikdə” sözləri ilə əvəz edilsin;

**1.6.** 2.1-ci bəndə və 3.4.1-3.4.5-ci yarımbəndlərə “yaxud” sözündən sonra “təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə” sözləri əlavə edilsin;

**1.7.** 3.1-ci bənddə “Nazirliyə” sözü “Xidmətə, Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə BNA-ya” sözləri ilə əvəz edilsin;

**1.8.** 3.4-cü bəndə “yaxud” sözündən sonra “təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə” sözləri əlavə edilsin və həmin bənddə “Nazirlik” sözü “Xidmət, Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə BNA” sözləri ilə əvəz edilsin;

**1.9.** 3.7.1-ci yarımbəndə “orqanının” sözündən sonra “(qurumun)” sözləri əlavə edilsin;

**1.10.** 3.8-ci bəndə “orqanının” sözündən sonra “(qurumunun)” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2016-cı il 16 may tarixli 18/Q nömrəli Qərarı ilə təsdiq edilmiş “Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası”nın 4-cü hissəsində “Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Tədris Kurs Kombinatında” sözləri “Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki “Nəqliyyat Təlim-Tədris Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində və Bakı şəhərinin inzibati ərazisində taksi minik avtomobillərinin sürücülərinə münasibətdə Bakı Nəqliyyat Agentliyinin “Sürücü Təlim Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində” sözləri ilə əvəz edilsin.

**3.** Hüquq şöbəsinə tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**4.** Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr,**<br>**Nəqliyyat, Rabitə və Yüksək**<br>**Texnologiyalar naziri** | **Ramin Quluzadə** |
| **Katib,**<br>**Sənədlərlə iş şöbəsinin müdiri** | **Gültən Mirəliyeva** |